## QƏDİR GECƏSİ

Eşitdiyimə görə, bir deyirmançı olub. Dəni üyüdəndə birdən deyirman dayanıb. Yüyürübdü arxa, görüb su dayanıb. Bu isdiyib desin ki, ali təhsilli, yüksək adamlardan elə. Deyib ki, başı yekələrdən elə, başı yekələrdən elə. Başı o qədər böyüyüb ki, dəyirmanın qapısından keçməyib. Sonra deyir, əstafirlax, başı balacalardan elə. Başı balacalaşıb olub bu boyda. O gecə nə dilək eləsən Allahatala qəbul eliyir.

Cəlal, Mamrıx

***

Mənim bibim qədir gecəsini görüb. Xəstə vaxtı olub, gecə yarı həyətə düşüb. Qədir gecəsi olduğunu heç başa düşməyib. Qabağında bulax olubdu. Burğunu açıbdı, görür su tökülmür. Bacısını çağırıb ki, bacı, bacı, görürsənmi, su tökülmür. Astafadakı su qatılaşmışdı. Əldən gedəndən sora başa düşüb ki, qədir gecəsi imiş.

*(Söyləyici: Davudova Hürü Həbibullah qızı, Zaqatala rayonu, Mamrıx kəndi, təvvəllüdü 1951, təhsili səkkizillik)*

***

Keçmişdə bizim qonşuluqda bir arvad olubdu, rəhmətdik Zibeydə xala. Dəsdəmaz almağa çölə çıxıbdı. Görübdü həyətdəki ağaclar yıxılıbdı. Diyifdi, ay Allah, bu gecə küləkmi əsdi, nə oldu ağaclar yıxıldı? Gedim hələ buzovu bağlıyım. Bu gedib buzovu gətirincə ağaclar hamısı başını qaldırıb. Diyifdi, Allah, qədir gecə idi, mən heç nə annamadım.

Şıxı kişi də görübdü qədir gecəsini. Xaral meşoğuna bizim dildə balaq deyillər. Onda da iki xaral dolu buğdası olan adam qışdan sağ çıxırmış. Bu deyib, ay Allah, mən nə isdiyim? İki xaral dolusu buğda demək isdiyib, dili çaşıb “balaqey balaq”, yəni xaral içində xaral deyib. Baxıb görüb yanında iç-içə iki xaral meşoğu var.

*(Söyləyici: Davudova Hürü Həbibullah qızı, Zaqatala rayonu, Mamrıx kəndi, təvvəllüdü 1951, təhsil səkkiz illik)*

***

Bizim kənddə bir yaşdı arvad olur. Bu çıxıb görür ki, ağac yıxılıbdı. Onda da bir yaxşı dilək tutmalısan, heç kimə deməməlisən. Bu da hamıya deyib ki, axşam ağac yıxılmışdı, dedim səhər durub yaxşıca bali[1] yiyacağam. Səhər durub baxır ki, ağac ayaq üsdədi. Əfəndi baba buna deyir, heləmi eliyərlər? Onu heş kimə deməzlər, bir yaxşı dilək tutarlar. Bu da onu bilmiyib.

(*Söyləyici: Musayeva Elmira Mohuma qızı, Zaqatala rayonu, Sabunçu kəndi, təvəllüdü 1968, təhsilli orta)*

***

Qədir gecəsi orucluğun 15-dən sonrakı tək günə düşür. Qədir gecəsini görən gərək başqasına deməsin. Mən bir-iki dəfə dedim, ondan sonra görmədim. Meşədə qoz çırpırdıx. Meşənin ortasıdı, ətraf qaranlıqdı. Yatmışıx, bir vaxdı gözümü açdım ki, qabaqdakı qoz ağacına işıq düşübdü. Mənim beynimə gəlmədi ki, bu, qədir gecəsi olar, bundan bir dilək isdiyim. Tez böyrümdəkini durğuzdum. Onu durğuzan kimi işıqlar getdi. İkinci gecə durdum, gördüm çəmənlik bir yerdi, irəlidə bir təpə var, təpədən o yana keçən kimi elə bil cənnətdi. Orda iki ağac var: biri heyvadı, biri nardı. Mənim də əlimdə Quran kitabı vardı. Dedim o ağacların altında oturub Quran oxuyaram. Genə yanımdakı qızı durğuzdum. Onu durğuzan kimi baxdım ki, yerin içindəyəm.

*(Söyləyici: Ramazanova Zərbiçə Qurban qızı, Zaqatala rayonu, Meşleş kəndi, təvəllüdü 1946)*

---

[1] Bali – gilas